*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 aprel 2016-cı il | № 24 (2039) | Qiyməti 25 qəpik

*Ön xətdən reportaj*

# Dumanlı yüksəkliklərdə

***Ön xəttə dumanlı-çiskinli bir gündə gəldik. Elə bil, axşamdan bu yerlərə çökmüş çən hələ çəkilməyib. Qərargahdan ön xəttə zabitlər də getməli idi. Onlarla birlikdə tələsik UAZ-la yola düşürük. Yolboyu beş addım qabaqda göz-gözü görmürdü.***

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*“Münaqişənin həlli üçün ilk növbədə ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa, işğal edilmiş torpaqları bir həftə belə işğal altında saxlaya bilməyəcək.”*



Bir qədər irəlidə başlanan torpaq yollar bir-birinə dolaşıb təpələrin arxasında gözdən itir. Adama elə gəlir ki, labirint kimi bir-birini eninə-uzununa kəsib keçən bu yolların dolaşığını açmaq müşkül məsələdir. Ancaq bu yerləri, görünür, beş barmağı kimi tanıdığından bizi ön mövqelərə aparan kamuflyajlı sürücü hara gedəcəyimizi yaxşı bilir.

Ağır hərbi maşınların saldığı izlə avtomobil silkələnə-silkələnə irəliləyirdi. Ən dözümlü, çətinliklərə sinə gərməyi, tabe olmağı bacaran və ən başlıcası, doğma yurdu ana kimi sevən insanlar Vətəni qorumağı özlərinə peşə seçirlər. Qışın soyuğunda, yazın bürküsündə əldə silah gecə və gündüz səngərlərdə dayanmaq yalnız ər kişilərin işidir. Ona görə bu yerlərə həmişə böyük həvəslə gəlmişəm.

Bizi ön mövqelərə gətirən UAZ dolanbac yollarla yüksəkliyin arxasına burulub dayandı. Buradan irəlidəki ərazilər də Azərbaycanın əzəli torpaqlarıdır, amma hələlik yollar burada bitir. Qarabağın qarşıdakı qara dağları hələ ki, düşmən əlindədir.

Bölmənin qarşısında bizi zabit Vüsal Bayramov qarşılayır. Əyinlərində zirehli gödəkçə, başlarında dəbilqə yaraqlı-yasaqlı bir neçə əsgər də sırada dayanmışdı. Məlum oldu ki, onlar postlardakı silahdaşlarını dəyişməyə getməlidirlər.

- Vəziyyətə burada döyüşçülərimiz tam nəzarət edirlər, - zabit Vüsal Bayramov deyir. - Bu Vətən oğulları yaxşı dərk edirlər ki, biz burada nə üçün dayanırıq. Zabit və əsgərlərimiz yaxşı bilirlər ki, işğal nəticəsində yurd yerlərindən qaçqın düşmüş həmvətənlərimiz Şuşa, Laçın, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Əsgəran... üçün nə qədər həsrət çəkirlər. Ancaq bizə, hələlik, bu yerlərdə müdafiədə dayanmaq tapşırılıb. Əsgərlərimiz də öz vəzifələrini yaxşı başa düşürlər.

Təmas xətti adlandırdığımız bu yerlərdə bağrında sədlər, xəndəklər və səngərlər şırım açmış, tikanlığa çevrilmiş bərəkətli torpaqlar zəhmətkeş insan əllərinin təmasına uzun müddətdir ki, həsrət qalıb.

Bu yerləri artıq 25 ilə yaxındır ki, cəbhə bölgəsi adlandırırıq. 22 il bundan əvvəl atəşkəs imzalansa da, bu mövqelərdə silah susmur. Təmas xəttində döyüş növbəsi aparan Vətən oğulları ermənilərin havadarlarının dəstəyilə işğal etdikləri qarşıdakı əraziləri silahlarının nişangahından müşahidə edir, düşmən təxribatlarına atəşlə cavab verirlər.

- Şəxsi heyətin hazırlığı, döyüş ruhu da yüksəkdir, - zabit Bayramov bildirir. - Ermənilər tez-tez mövqelərimizi müxtəlif silahlardan atəşə tuturlar. Axşam yenə avtomatlardan, pulemyotlardan atmışdılar. Atəşkəsi pozan kimi cavablarını elə veririk ki, susmaqdan başqa çarələri qalmır. Düşmənin başını qaldırmasına imkan vermirik. Bu da təbiidir. Bu yerlər bizim torpaqlardır. Onlar gec-tez bu yerlərdən rədd olub getməlidirlər.

Ön xəttə qalxarkən, doğrusu heyrətləndim. Əlaqə yoluna daşlardan pilləkən inşa edilmişdi. Hərbi hissənin istehkamçıları sədd və səngərlərimizi daşla, betonla hörərək bərkidiblər. Daha nə yağış, nə də külək səngərlərdə torpağı aşındıra bilməz.

**(Ardı 2-ci səhifədə)**



Silahlı Qüvvələrdə mart soyqırımı qurbanlarının xatirəsi anılıb

4-cü səhifədə



Ən yaxşı zenit qurğusu heyəti

6-cı səhifədə



“Hər bir zabitə liderlik bacarığı vacibdir”

7-ci səhifədə



Təşəkkür çiçəkləri

8-ci səhifədə

# Müdafiə naziri Misirin Müdafiə Nazirliyi Sərhəd Qoşunları nümayəndə heyəti ilə görüşüb

***Martın 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Misir Ərəb Respublikası Müdafiə Nazirliyi Sərhəd Qoşunlarının Komandanı general-mayor Əhməd İbrahim Məhəmməd İbrahimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Müdafiə naziri qonaqlara regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, müxtəlif sahələrdə inkişaf edən ikitərəfli münasibətləri yüksək qiymətləndirib. İki ölkənin hərbi sahədə əlaqələrinə toxunan general-polkovnik Zakir Həsənov ölkələrimizin müvafiq qurumları arasında həyata keçirilən uğurlu əməkdaşlığın perspektivlərini xüsusi qeyd edib.

General-mayor Əhməd İbrahim Məhəmməd İbrahim Misir dövlətinin dostluq münasibətlərində olduğu Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməkdə maraqlı olduğunu, bunun üçün geniş imkanların mövcudluğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Misir arasında hərbi, hərbi-texniki istiqamətlərdə münasibətlərin genişləndirilməsinin vacibliyi, eləcə də terrorizmə qarşı birgə mübarizə, döyüş təcrübəsi sahəsində əldə edilən biliklərin mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto çavuş
Vüsal HƏMİDOVUNDUR**

# Dumanlı yüksəkliklərdə

(Əvvəli 1-ci səhifədə)

Sədlər və səngərlər istehkam nöqteyi-nəzərindən yüksək səviyyədə hazırlanıb. Hər səngər topdağıtmaz qalaya çevrilib. Relyefə görə mövqelər olduqca uğurla seçilib və postlar elə qoyulub ki, düşmən mövqelərini tam nəzarətdə saxlamaq mümkündür. Erməni zinvorları atəşkəsi pozarkən şəxsi heyətə xətər yetirə bilməsin deyə, atəş nöqtələri, postlarımız dəmir-beton vasitələrlə möhkəmləndirilib. Bütün bunlar ön xətdə müşahidə etdiyimiz önəmli dəyişikliklərdəndi.



- Ərazilərimizin düşməndən müdafiəsinin təmin edilməsi qarşımıza qoyulmuş başlıca vəzifədir, - zabit Bayramov söyləyir. - Bunun üçün fasiləsiz olaraq ön xətdə döyüş növbətçiliyinin həyata keçirilməsi, gecə və gündüz döyüşçülərimizin postlarda ayıq-sayıq xidmətlərini aparması zəruri məsələdir. Əsgərlərimiz döyüş növbəsini məsuliyyətlə aparırlar.

## Pirimovun bölməsi

Möhkəmləndirilmiş postlarda baş leytenant Təbriz Pirimovun bölməsi döyüş növbəsi çəkir. Səddin içində əsgəri qaydada baş leytenant komandirinə vəziyyətlə bağlı məruzə edir.

- Duman olduğuna görə düşmən mövqelərini indi müşahidə etmək mümkün deyil, - bölük komandiri bizimlə söhbətində dedi. - Səhər tezdən hələ ki, sakitlikdir. Buna baxmayaraq, ayıq-sayıq döyüş növbəsi aparır, qarşıdakı ərazini ciddi nəzarətdə saxlayırıq. Silah-sursat sarıdan hər şeyimiz var. Düşmənin istənilən təxribatının qarşısını almağa hazırıq.

Bölmə komandiri əslən Quba rayonundandır. 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Artıq dörd ilə yaxındır ki, zabit kimi xidmət edir. Hazırda döyüşçüləriylə birlikdə ona etibar edilmiş mövqelərin müdafiəsində dayanıb. Gənc zabit öz məsuliyyətini yetərincə dərk edir, tabeliyindəki əsgərlərə də Vətənin müdafiəsində dayanmağın əsl kişi, həqiqətən, şərəf işi olduğunu aşılamağı bacarıb. Təbii ki, komandirin gücü onun əsgərlərindədir. Əsgərsiz komandir patronsuz silah kimidir.

Bölmədə ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılanlar var. Onlar bir-birilərini tanıyıb, dostlaşıb, qardaşlaşıblar. Ən başlıcası isə, əsgərlərimiz bir-birinə dayaq, silahdaşdırlar. Düşmənə birgə sinə gərirlər. Həm də yaxşı anlayırlar ki, onların gücü birlikdədir. Əsgərlərimiz mövqelərdə daha ürəkli, daha qorxmaz, daha döyüşkən görünürlər. Onların ovqatı yüksəkdir. Vətənimiz Azərbaycana övladlıq borcunu verdikləri üçün öz vəzifələrinə məsuliyyətlə yanaşırlar.

## "Arxada Vətən durur"

- Qarşıdakı düşmənin hər bir hərəkətini izləyirik, - manqa komandiri Elvin Rüstəmov cavab verir. O, Şəki rayonunun Boldərə kəndindəndir. - Müşahidələrimizi gündəlikdə qeyd edirik və komandanlığa məlumat veririk. Mən hər şeydən öncə öz silahdaşlarıma güvənirəm. Arxamızda isə qüdrətli Vətənimiz var. İndi əvvəlki vaxtlar deyil, erməni bizə nə edə bilər?!

Əsgər İbrahim İbrahimov isə Ağdaş rayonunun Yellicə kəndindəndir. Artıq bir ildir ki, o, Vətənə övladlıq borcunu verir. İntizamlı, məsuliyyətli əsgərdir.

Postunda ayıq-sayıq dayanmış əsgər İbrahimov dəmir-beton atəş nöqtəsindən qarşı tərəfi izləməkdə davam edir və səngərin qarşısından gözünü çəkmədən suallarımı cavablandırır.



- Mən bir saatdır ki, postda dayanmışam, - əsgər deyir. - Dumandan qarşıda heç nə görünmür. İndiyədək atışma da olmayıb. Mövqelərimiz möhkəmdir. Düşmən atəş açan kimi cavabını veririk.

Atıcı Fərid Abdullazadə isə Sabirabad rayonundandır, ötən ilin iyulunda hərbi xidmətə gəlib. O da bu mehriban hərbi kollektivdə qaynayıb-qarışıb, mahir bir döyüşçüyə çevrilib.



- Biz hərbi xidmətə gələndən sonra bir müddət gənc əsgər kursu keçdik. Silahla rəftar və döyüş qaydalarını öyrəndik. Bir müddət sonra komandirlərimiz döyüş növbəsi aparmağa icazə verdilər, - Fərid deyir. - Bizdən əvvəl də bu yerlərdə başqa əsgərlər döyüş növbəsi aparıblar. İndi biz qoruyuruq Vətəni. Bizdən sonra gələnlər də eyni qaydada Azərbaycana əsgəri borclarını verəcəklər.

Əsgər Əmrah Fətullayev Göygölün Molla Cəlilli kəndindən hərbi xidmətə çağırılıb. Sarışın döyüşçünün düşüncələri də olduqca maraqlı gəldi.

- Xidmətimi başa vurmağa dörd ay qalıb, - Əmrah dedi. - Ancaq hərbi xidmətdə aldığım təəssüratları uzun müddət, yəqin ki, unutmayacam. Əsgər həyatı mənə müstəqil yaşamağı öyrədib. Bu mövqelərdə valideynlərimin, Vətənimin dəyərini anlamışam. Məsuliyyətin nə demək olduğunu bilmişəm. Doğrudan da, hərbi xidmət həyat məktəbidir. Orduda qazandıqlarım, inanıram ki, ömrümün sonuna qədər gərəyim olacaq.

Ön xətdəki postları tərk edərkən bir fikir düşüncələrimə hakim kəsilir. Bəli, bu yerlərdə gördüklərim əsl cəbhə həyatıdır. Və bütün çətinlikləri, mövcud intizamı, özünəməxsus rejimi ilə, eyni zamanda dözümlü, mətin döyüşçülərilə adamda dolğun təəssürat oyadır. Baxışlarında qığılcım parlayan bu oğullarla torpaqlarımızı son qarışına kimi düşməndən azad etmək gələcəyin işidir. Buna inanıram.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu",
fotolar müəllifindir**

# Hərbi Akademiyada "Sosial siyasət və onun milli gücə təsiri" mövzusunda mühazirə dinlənilib



***2016-cı ilin tədris planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrləri tərəfindən silsilə mühazirələrin keçirilməsinə başlanılıb.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, plana uyğun olaraq Parlamentin Əmək və Sosial Siyasət Komitəsinin sədri, millət vəkili Hadi Rəcəbli Hərbi Akademiyada şəxsi heyətlə görüşüb. O, "Sosial siyasət və onun milli gücə təsiri" mövzusunda mühazirə ilə çıxış edərək aparılan diskusiyada iştirak edib və dinləyiciləri maraqlandıran sualları cavablandırıb.




# Dəmir atlı süvarilər

***Müasir silah və texnika ilə təchiz olunmuş quru qoşunları düşmənin müdafiə xəttini yarmağa, düşməni dərinliklərə doğru təqib etməyə, döyüşə-döyüşə müxtəlif manevrləri dəf edərək ələ keçirilmiş məntəqə və rayonlarda güclü müdafiə sistemi qurmaq kimi üstünlüklərə malikdir.***

Tanklardan ilk dəfə Birinci Dünya müharibəsində istifadə edilib. Təbii ki, illər ötdükcə, silah və texnikalar da təkmilləşdirilir, dağıdıcı gücü daha da artırılır. İkinci Dünya müharibəsində istifadə edilən silah və texnikalar daha dağıdıcı gücə malik idi. Bu müharibədə tanklardan istifadəyə üstünlük verilirdi. Tankın təkcə atəşlə məhv etməyi deyil, hətta onun uğultusu belə düşməni qorxuya salırdı. İkinci Dünya müharibəsində təkcə 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun döyüş yoluna nəzər salmağımız kifayət edər ki, xalqımızın mərd oğullarının düşmənə qarşı barışmaz mübarizəsinin şahidi olaq. Həmçinin Qarabağ müharibəsi dövründə işğalçı erməni birləşmələrinə qarşı döyüşlərdə tankçılarımız qəhrəmanlıq nümunələri göstərmişlər.

Əlahiddə Ümumqoşun Ordunun tank bölmələrindən birində zabit Zaur Hüseynovla görüşüb şəxsi heyətlə yaxından tanış olmaq imkanı əldə etdim. Park-təsərrüfat günü idi. Silah və texnikaya qulluq ərəfəsində şəxsi heyətin təssüratlarını öyrəndim.

Zabitlərdən Elçin Mustafayev, Zahid Əliyev, Qərib Məmmədov bildirdilər ki, müasir tanklar ən yeni silahlarla təchiz edilmiş döyüş maşınlarıdır. Zabitlərə görə, "tank bölmələri uzaq məsafələrə sürətli yürüş etmək, düşmənin müdafiə xəttini yararaq yüksək templə hücum etmək imkanlarına malikdir. Həm də tank bölmələri dayanmadan su maneələrini keçə, su altında hərəkət edə, bərə vasitələrindən istifadə etməklə güclü müdafiə mövqeyi qura, qətiyyətli əks-hücumu həyata keçirə bilər. Bütün bunlar tankçıları yenilməz edir. Bizim şəxsi heyəti yenilməz edən təkcə onların istifadəsində olan tanklar deyil. Həm də onların yüksək mənəvi-psixoloji, ideoloji və fiziki hazırlığa malik olmasıdır."

Silah və texnikaya qulluqda, döyüş hazırlığı dərslərində, taktiki məşğələlərdə və təlimlərdə digər əsgər yoldaşları kimi komandirlərinin ən yaxın köməkçiləri olan Turac Quluzadə, Elçin Bayramov, Coşqun Əliyev, İlkin Poladzadə söhbət zamanı bildirdilər ki, müharibədə qələbə qazanmaq üçün döyüşçü öz silahını və hərbi texnikanın sirlərini mükəmməl bilməli, onları həmişə döyüşə hazır vəziyyətdə saxlamalı və bacarıqla işlətməlidir. "Buna görə də biz əsgərlər verilən bütün tapşırıqları vaxtında və dəqiq yerinə yetirmək üçün silah və texnikanın sirlərini dərindən bələd olur, onları saz vəziyyətdə saxlamağa çalışırıq."

Hərbi xidmətin çətinliyinə gəlincə, əsgərlərdən Allahverdi Bayramov, Nuran Quluyev və başqaları bildirdilər ki, hərbi xidmətə başladığımız ilk günlərdə bəzən çətinliklər olurdu. "Amma bu gün heç bir çətinliklə rastlaşmırıq. Çünki mütəmadi keçirilən dərs, məşğələ və təlimlərdə iştirak etmişik. Qazandığımız bilik və təcrübə sayəsində istənilən döyüş tapşırığının öhdəsindən layiqincə gələ bilərik. Həmçinin bizim məişət şəraitimiz daha da yaxşılaşdırılıb, müasir yataqxanalarda yaşayırıq. Bu da bizim xidmətimizi daha da asanlaşdırır."

Həmin gün tankçılarımızın başqa qonaqları da var idi. Heydər Əliyev adına Hərbi Liseyin kursantları tank bölməsinə gəlmişdilər. Belə ziyarətlər Əlahiddə Ümumqoşun Ordunun müxtəlif təyinatlı hissə və bölmələrində də təşkil edilir. Bu zaman kursantlar silah və texnika ilə, şəxsi heyətin sosial məişət şəraiti ilə yaxından tanış olurlar. Təbii ki, bütün bunlar da kursantlarımızın Silahlı Qüvvələrimiz və onun silah arsenalındakı silahlar haqqında daha geniş biliklər əldə etmələrinə, onların vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir. Kursantlardan Elçin Abbasov, Rəvan Məmmədov, Pərvin Abdullazadə, Elşad Məmmədov, Həbib Şükürlü və Pərvin Həsənov tank bölməsindən əldə etdikləri təəssüratları bölüşdülər.



Əsas döyüş texnikalarından olan tankları yaxından gördüm. Tankçılar möhtəşəm döyüş maşını haqqında ətraflı danışdılar. Öyrəndim ki, gələcəyin zabitləri bir neçə gün əvvəl də artilleriya bölməsində olublar.

Əgər qədim zamanlarda döyüşlərdə atlardan istifadə edilirdisə, müasir dövrdə onları dəmir atlar, yəni tanklar əvəz edib. Mən də bu dəfə dəmir atlı süvarilərimizin bir günlük fəaliyyətləri ilə yaxından tanış oldum. Əldə etdiyim təəssüratlar həmişəki kimi ürəkaçan oldu. Çünki Əlahiddə Ümumqoşun Ordunun hissə və bölmələrində xidmət edən hərbi qulluqçular Vətənə, dövlətə və xalqa xidməti ömürlərinin mənası hesab edirlər.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Yarımca, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 121 dəfə atəş zərbəsi endirib.

***1 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 142 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Yarımca, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Nəmirli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 145 dəfə atəş zərbəsi endirib.

# Silahlı Qüvvələrdə mart soyqırımı qurbanlarının xatirəsi anılıb

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, mərkəzi və qarnizon zabitlər evləri, klub və kitabxanalarında 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anma tədbirləri təşkil olunub.***





Tədbirlərdə ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə hər il martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunmasının əhəmiyyəti xüsusi vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların dəhşətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində həyata keçirdiyi siyasətin uğurları barədə ətraflı məlumat verilib.



Anma tədbirlərində soyqırımı qurbanlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib, sərgilərə baxılıb, ədəbi-bədii kompozisiyalar və sənədli filmlər nümayiş olunub.

Tədbirlərdə şəxsi heyətə ermənilərin xalqımıza qarşı yürütdüyü düşmənçilik siyasətinin kökü, tarixi barədə ətraflı məlumatlar verilərək mənfur qonşularımızın törətdikləri qırğınların və qətliamların ağır nəticələri bir daha xatırlanıb. Gələcəkdə bu kimi hadisələrin təkrarlanmaması üçün ümumi düşmənə qarşı birliyimizin vacibliyini vurğulamaq, soyqırımı törədənlərə nifrət hissini aşılamaq, ordumuzda döyüş ruhunu, mənəvi-psixoloji hazırlığı və vətənpərvərlik hisslərini daim yüksək səviyyədə saxlamaq da keçirilən tədbirlərin əsas mövzusunu təşkil edib.

* * *

Beyləqan bölgəsində xidmət edən hərbçilər şəhərdəki "Azərbaycanlıların soyqırımı" abidə-kompleksini ziyarət ediblər. Abidə önünə tər qərənfillər düzülüb, soyqırımı qurbanlarının xatirəsi ehtiramla anılıb.

Azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə əsgər və zabitlərə ətraflı məlumat verilib.

Əsgərlər Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların, eləcə də soyqırımı qurbanlarının intiqamını alacaqlarına və işğal altında olan torpaqlarımızı tezliklə azad edəcəklərinə and içiblər.

* * *

Bir xalqı tarixdən silməyə istiqamətlənən, kütləvi qırğınlarla həyata keçirilən siyasət soyqırımdır. Ermənilərin xalqımıza qarşı apardığı belə bir siyasətin kökləri ötən əsrlərlə səsləşir. İmperiya siyasəti Cənubi Qafqaza köçürülənlərə (ermənilərə) siyasi və hərbi dəstək verməklə aborigen millətin (azərbaycanlıların) müstəqilliyini əlindən almağa, dövlətçiliyini silməyə yönəldilmişdi. Bu siyasət 1918-ci ildə milli qırğın həddinə çatdırıldı...

Azərbaycanın iri şəhərlərində, müxtəlif rayonlarında kütləvi qırğınlar törədildi. Bolşevik-daşnak qüvvələri tərəfindən dövlətçiliyimizə qarşı həyata keçirilən məqsədli təxribatlar, əməliyyatlar xalqımızın iradəsini sarsıda bilmədi. Nə qədər çətin olsa da, xalq bunun qarşısını ala bildi.

Quba məzarlığı soyqırımın miqyası haqqında kifayət qədər geniş informasiya verir. Bu informasiyalar erməniliyin bəşər üçün nə qədər təhlükəli olduğunun təsdiqidir...

Azərbaycanlıların Soyqırımı Günü Hərbi Dəniz Qüvvələrində də qeyd olundu. Tədbiri 2-ci dərəcəli kapitan Vüqar Quliyev açdı.

Ümummilli lider Heydər Əliyevin, soyqırım qurbanlarının və ərazi bütövlüyümüz uğrunda döyüşlərdə şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra soyqırımı əks etdirən sənədli film nümayiş etdirildi.

Mərkəzi Zabitlər Evinin əməkdaşı Gülxar Məmmədova tədbirdə çıxışı zamanı ötən əsrin əvvəllərində baş verən hadisələrin mahiyyətindən, mart qırğınlarının baş vermə səbəblərindən və həyata keçirilmə üsullarından danışdı.



Tədbirin sonunda Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistləri ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

* * *

31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Azərbaycan Hərb Tarixi Muzeyində anım mərasimi keçirildi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "31 mart - azərbaycanlılara qarşı bolşevik-daşnak birliyinin görünməmiş cinayətləri" mövzusunda çıxış edərək bildirdi ki, daşnak erməni millətçiləri zaman-zaman Cənubi Qafqazda "Böyük Ermənistan" dövləti yaratmaq planlarını həyata keçirməyə çalışıblar. "Daşnakların fəal nümayəndələrindən olan S.Şaumyan Azərbaycanın müstəqilliyi uğrunda mücadiləyə başlamış milli qüvvələrə müraciətlə bildirmişdi ki, sizə Azərbaycanın müstəqilliyi yerinə bir məzarlıq verəcəyəm. Müraciət Bakının bütün müsəlman əhalisinə ünvanlanmışdı. Bolşevik-daşnakların məqsədi Bakını bütünlüklə müsəlmanlardan təmizləmək və onu erməni dövlətinin təkibinə daxil etmək idi. 1918-ci il martın 19-dan başlanan qırğınlar, demək olar ki, Bakının hər bir tərəfini əhatə etmiş və 10 gün ərzində şəhərdə 12 min dinc müsəlman qətlə yetirilmişdi. Bolşevik-daşnaklar qadına, uşağa, qocaya fərq qoymur, qarşılarına çıxan müsəlman əhalini yerindəcə güllələyir və süngüdən keçirirdilər. Bu dəhşətli mənzərəni görənlər söyləyirdilər ki, Bakının küçələrində insan qanı sel yerinə axır və öldürülmüş insanların cəsədləri qalaq-qalaq yığıldığından sanki təpələri xatırladırdı."



- Ötən əsrin axırlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hadisələrə ilk dəfə doğru-düzgün, siyasi-hüquqi qiymət ulu öndərimiz Heydər Əliyev tərəfindən 1998-ci il martın 26-da imzalanmış "Azərbaycanlıların soyqırımı" haqqında fərmanda öz əksini tapdı, - deyən natiqə görə, bu fərman, ermənilərin xalqımıza qarşı törətdiyi tarixi cinayət əməllərinin hərtərəfli şəkildə öyrənilməsi və dünya ictimaiyyətinə tanıdılması üçün geniş imkanlar yaratdı.

Tədbirdə digər çıxış edənlər də vurğuladılar ki, ulu öndərimizin layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyev bu gün Azərbaycanın daha da güclənməsi və müdafiə qabiliyyətinin yüksəlməsi üçün yorulmadan mübarizə aparır. Tezliklə torpaqlarımız azad ediləcək və qəsbkar erməni daşnaklarının bədnam tarixi soyqırım əməlləri bütün dünyada lənətlənəcəkdir.

Sonda azərbaycanlıların soyqırımına həsr olunmuş qısametrajlı film nümayiş olundu.

# Silahlı Qüvvələrdə mart soyqırımı qurbanlarının xatirəsi anılıb

Cəbhə bölgəsindəki hərbi bölmələrin birində 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar ədəbi-bədii gecə keçirilib.

Ümummilli lider Heydər Əliyevin, soyqırımı qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxışında qeyd edib ki, ermənilərin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımlar və analoqu olmayan qətliamlar uzun müddət xalqdan gizlədilib, arxivlərin qapısına polad kilidlər vurulub, hətta, bu barədə danışmaq belə yasaq edilib. Lakin 1998-ci il martın 26-da xalqımızın ümummilli lideri Heydər Əliyevin imzaladığı müvafiq fərmandan sonra əsl həqiqətlər üzə çıxıb. İlk dəfə olaraq bu fərmanda azərbaycanlılara qarşı soyqırımı öz rəsmi ifadəsini tapıb. 1998-ci ildən başlayaraq ölkəmizdə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməkdədir. Bu gün biz tarixin ibrət dərslərindən nəticə çıxarmalı və unutmamalıyıq ki, hələ də torpaqlarımızın bir hissəsi düşmən işğalı altındadır. Biz həmin torpaqları tezliklə azad etməyə borcluyuq.





Füzuli rayon Kərimbəyli kənd məktəbinin müəllimi Azad Əsədov, mayor Namiq Cavadov, Füzuli Dövlət Dram Teatrının direktoru, əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev və başqaları çıxış edərək soyqırımı qurbanlarının xatirəsinin ölkəmizdə əziz tutulduğunu, bir çox bölgələrimizdə xatirə komplekslərinin yaradıldığını qeyd ediblər.

Sonra Füzuli Dövlət Dram Teatrının aktyorlarının ifasında yazıçı-dramaturq-publisist, Milli Məclisin deputatı Hüseynbala Mirələmovun eyni adlı dramı əsasında hazırlanmış "Xəcalət" adlı ikihissəli tamaşa şəxsi heyətə təqdim edilib.

Rejissor Asif Şirinovun quruluş verdiyi tamaşada aktyorlardan Sevinc Məmmədova, Sehran Xanlarov, Elçin Məmmədov, Əsmət İbrahimova, Elşən Gözəlov, Fatimə Səfərəliyeva, İsmayıl İbrahimov və başqalarının çıxışları şəxsi heyət və hərbi hissəyə qonaq gəlmiş Kərimbəyli və Şükürbəyli kənd orta məktəblərinin müəllim və şagirdləri tərəfindən də maraqla qarşılanıb.

Tamaşanın sonunda yaradıcı heyətə hərbi hissənin komandiri şəxsi heyət adından minnətdarlığını bildirib.

* * *

Cəbhə bölgəsindəki hərbi hissələrin birində Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun birgə layihəsi olan "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları" kitabının təqdimatı olub.

Kitab haqqında ətraflı məlumat verən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani bildirib ki, 31 Mart Azərbaycanlıların Soyqırımı Günündə bu dəyərli tədqiqat əsəri soyqırımı qurbanlarının xatirəsinə hörmət və ehtiramın təcəssümü olmaqla yanaşı, həm də zaman-zaman havadarlarından hərtərəfli kömək alan erməni cəlladlarının Azərbaycan və Şərqi Anadolu torpaqlarında türk-müsəlman əhaliyə qarşı törədilmiş soyqırımının dünyaya çatdırılmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Qeyd olunub ki, kitabda ermənilərin 1905-1906-cı illərdə Cənubi Qafqazda, 1917-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində, 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba qəzalarında, eləcə də Qarabağ, Zəngəzur bölgələrində, İrəvan quberniyasında türk-müsəlman əhalisinə qarşı törədilmiş kütləvi qırğınlar haqqında arxiv materiallarına əsaslanan ətraflı məlumat verilir. Burada 1940-1990-cı illərdə Ermənistanın Azərbaycan xalqına qarşı yürütdüyü deportasiya, etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti barədə də kifayət qədər araşdırma materialları oxuculara təqdim edilir.

Ümumiyyətlə, kitab şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik və düşmənə nifrət hissinin yüksəldilməsində qiymətli vasitədir.

Polkovnik-leytenant Seymur Həbibullahov, mayor Namiq Cavadov və başqaları kitab barədə fikirlərini bölüşüb, dəyərli əsərdəki məlumatların bütün bölmələrdə şəxsi heyətə çatdırılmasının əhəmiyyətindən danışıblar.





* * *

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilən soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi var. Bu siyasətin məqsədi azərbaycanlıları öz dədə-baba torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaqdır. 19-cu əsrin birinci rübündə Rusiya və İran arasında gedən müharibələrin nəticəsi kimi Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə Qarabağ ərazisinə İran və Türkiyədən ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsinə başlanılıb, burada demoqrafik vəziyyət süni surətdə dəyişdirilib. Mərhələ-mərhələ davam etdirilən bu siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, yəni min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınıblar.

Hələ 300 il əvvəl rus imperatoru I Pyotr cənuba göndərdiyi qasidlərə tapşırmışdı: "Onları (erməniləri) toplayıb bizim torpaqlara gətirməyə çalışmaq lazımdır ki, Rusiyanın istinadgahı olsun."

Bu məqsədlə İran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməni 19-cu əsrin birinci yarısında Azərbaycana köçürüdü, İrəvan (indiki Yerevan) Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Ordubad, Dərələyəz, Vedibasar və digər ərazilərdə yerləşdirildi.

Baş vermiş qanlı hadisələr nəticəsində təkcə XX əsrdə 2 milyondan çox azərbaycanlı qanlı terror və soyqırımı siyasətinin qurbanı olub. Ürək ağrıdan fakt odur ki, bu gün Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa formada zərər çəkməyən ailə tapmaq çox çətindir. Demək olar ki, bu ağrı-acılar hər birimizin ürəyində yaşanır. Xalqımız mart soyqırımı qurbanlarının xatirəsini həmişə əziz tutur, hörmətlə anır.

**"Azərbaycan Ordusu"**



AZƏRBAYCAN ORDUSU

# Şəhid ailələrinə medallar təqdim olunub



Tərtər rayonunun Kəngərli kəndində martın 25-də qoşunların təmas xəttində işğalçılarla döyüşdə şəhid olan Silahlı Qüvvələrimizin hərbi qulluqçusu kiçik çavuş Abbaszadə Elşad Raquf oğlunun ailəsinə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı təqdim edilib.

Müdafiə Nazirliyinin, Tərtər rayon İcra Hakimiyyətinin, Qarabağ müharibəsi veteranları və əlillərinin, kənd sakinlərinin, məktəblilərin və hərbi qulluqçuların iştirak etdiyi mərasimdə Azərbaycan əsgərlərinin Vətənin müdafiəsindəki şücaətindən bəhs olunub, şəhidlərin ruhuna dualar oxunub.

Tərtər rayon İcra Hakimiyyətinin nümayəndəsi Elvin Umudov və başqaları mərasimdə çıxış edərək, tərtərlilərin torpaqlarımızın müdafiəsində fəal iştirakından, Abbaszadə Elşadın mənalı həyat və döyüş yolundan, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıblar.

Şəhidin ailəsinə başsağlığı verən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani bildirib ki, cəbhə xəttində erməni silahlılarının bütün təxribat cəhdlərinin qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınır, düşmənə layiqli cavab verilir.

Abdulla Qurbani "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin qardaşına təqdim edib.

Şəhidin qardaşı Rəşad Abbasov qardaşının Vətən uğrunda həlak olduğuna görə fəxr etdiyini diqqətə çatdırıb.

* * *

Yevlax rayonunun Qaraoğlan kəndində martın 27-də qoşunların təmas xəttinin Qazax rayon istiqamətində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Hacıyev Qəfərəli İntiqam oğlunun ailəsinə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalın təqdim edilməsi mərasimi keçirilib.



Müdafiə Nazirliyinin, Yevlax şəhər icra strukturlarının, kənd sakinlərinin, məktəblilərin və hərbi qulluqçuların iştirak etdiyi mərasimdə şəhid əsgərlərimizin şücaətindən bəhs olunub, ruhlarına dualar oxunub.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani şəhidin ailəsinə başsağlığı verib. Bildirib ki, martın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qazax rayonu ərazisində dövlət sərhədini pozaraq ərazimizə soxulmağa cəhd göstərib. Bu istiqamətdə yerləşən bölmələrimizin sayıqlığı nəticəsində düşmənin hərəkəti qabaqcadan aşkar edilərək, qarşısı alınıb. İtkilərə məruz qalan işğalçılar geri çəkilməyə məcbur edilib.

Anım mərasimində Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin anasına təqdim edib.

Şəhidin anası Rüxsarə Hacıyeva Vətənə xidmətin hər bir övladın borcu olduğunu deyərək, şəhid oğlu ilə fəxr etdiyini bildirib.

* * *

Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu ərazisində düşmən təxribatının qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun zabiti Qalib Laim oğlu Zülfüqarlının ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" üçüncü dərəcəli medalı ailə üzvlərinə təqdim edilib.

Martın 30-da şəhidin doğulduğu Lənkəran rayonunun Vilvan kəndində mərasim keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani, rayonun icra strukturlarının nümayəndələri, hərbi qulluqçular, Qarabağ müharibəsi veteranları, kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər Vətən uğrunda şəhid olmuş Qalib Zülfüqarlının daim xatirələrdə yaşayacağını, onun qısa, lakin mənalı ömür yolunun gənclərə örnək olduğunu diqqətə çatdırıblar.

Şəhid Qalib Zülfüqarlının layiq görüldüyü medal onun qardaşı Qabil Zülfüqarlıya təqdim olunub.

**AZƏRTAC**

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# Ən yaxşı zenit qurğusu heyəti

***Bütün qoşun növlərində olduğu kimi, hava hücumundan müdafiəçilər də verilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün lazımi peşə vərdişlərinə yiyələnirlər. Ona görə döyüş hazırlığı məşğələlərində şəxsi heyət tərəfindən qazanılmış biliklərin praktik olaraq möhkəmləndirilməsi zəruridir. Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun keçirilən kompleks tədbirlər hava hücumundan müdafiənin səmərəli təşkili üçün zəmin yaradır.***



Ordumuzda şəxsi heyətin peşə bacarığının yüksəldilməsi məqsədilə Müdafiə nazirinin qərarına əsasən, ayrı-ayrı qoşun növlərində, o cümlədən hava hücumundan müdafiəçilər arasında ən yaxşı hərbi mütəxəssis adı uğrunda müsabiqələr keçirilir və hər bir ixtisasçıya öz qabiliyyətini nümayiş etdirməyə imkan yaradılır. Yarış formasında təşkil edilən bu müsabiqələrdə ən bacarıqlılar qalib gəlir və öz peşələrinin ustası olduqlarını sübuta yetirirlər.

Bu yaxınlarda "N" hərbi hissəsində "Ən yaxşı zenit qurğusu heyəti" adı uğrunda müsabiqə keçirilib. Xeyli sayda zenitçinin qatıldığı yarışda daha hazırlıqlı mütəxəssislər, müəyyən edilmiş meyarlara əsasən, müsabiqənin qalibi oldular. Hərbi hissədə zenitçilər batareyasının birinci taqımının ikinci manqası bütün rəqiblərindən yaxşı nəticə göstərməyi bacarıb. Manqa komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Zülfü Əhədov, heyət üzvləri əsgərlər Fariz Həsənov, Adil Allahverdiyev, Araz Göyüşov müsabiqədə fərqləndiklərinə görə komandanlıq tərəfindən mükafatlandırılıblar.

- Bir zenitçi olaraq borcumuzdur ki, vəzifəmizi məsuliyyətlə öyrənək və döyüş tapşırığı veriləndə onu məharətlə yerinə yetirək, - manqa komandiri deyir. - Hərbi hissəmizdə bunun üçün lazımi şərait yaradılıb. Müsabiqənin keçirilməsi isə hər birimizin ürəyindən oldu. Hər zenitçi heyəti bu yarışda həvəslə iştirak etdi. Bizim üçün həm də ona görə xoşdur ki, manqamız müsabiqənin qalibi oldu və ən yaxşı zenit qurğusu heyəti adını qazandı.

Azərbaycanın müxtəlif bölgələrindən hərbi xidmətə çağırılan Vətən oğulları burada həm Vətənə övladlıq borcunu verir, həm də hərbi peşəyə, zenitçi ixtisasına həvəslə yiyələnirlər. Motoatıcılar, tankçılar, artilleriyaçılar Vətənimiz Azərbaycanın müdafiəsində dayandıqları kimi hava hücumundan müdafiəçilərimiz də səmamızın aydınlığı keşiyində dururlar.

- Silahlı Qüvvələrimizin gündəlik fəaliyyətində və döyüş potensialında öz yeri, öz çəkisi olan hava hücumundan müdafiəçilərimizin peşəkarlığı günü-gündən artmaqdadır, - zabit Akif Cumayev deyir. - Döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət ixtisas hazırlığını artırır. Fərdi hazırlıq dövründə, heyət şəklində və daha geniş tərkibdə zenitçilər üzərlərinə düşən konkret vəzifələrin nədən ibarət olduğunu praktik baxımından öyrənirlər.

Eyni zamanda ixtisas hazırlığını və döyüş bacarığını yüksəltmək üçün hava hücumundan müdafiəçilər təlim bazasına ezam olunur və öz peşəkarlıqlarını artırırlar. “Ən yaxşı zenit qurğusu heyəti” adı uğrunda keçirilən müsabiqələr şəxsi heyəti öz xidməti vəzifələrini daha həvəslə yerinə yetirməyə ruhlandırdığı kimi, döyüş hazırlığının artırılması üçün əlavə stimul yaradır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# ABŞ Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

AZƏRTAC xəbər verir ki, bu fikir Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin mətbuat katibi Con Kirbinin Azərbaycan Prezidenti İlham Əliyev ilə ABŞ dövlət katibi Con Kerrinin görüşünün nəticələrinə dair yaydığı bəyanatda qeyd edilib.

Dövlət Departamentinin rəsmi saytında yer alan bəyanatda C.Kirbi bildirir ki, görüşdə tərəflər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərilən səyləri müzakirə ediblər. Dövlət katibi ABŞ-ın qoşunların təmas xəttində atəşkəsin pozulması ilə bağlı narahatlığını ifadə edib. O, rəsmi Vaşinqtonun münaqişənin BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və Helsinki Yekun Aktına uyğun həlli üçün tərəflər ilə birgə işləməyə sadiq qaldığını qeyd edib.

Dövlət Departamentinin mətbuat katibi C.Kirbi deyib ki, Con Kerri ABŞ-ın Azərbaycanın regionda ticarət mərkəzinə çevrilməsi istiqamətində göstərdiyi səyləri dəstəklədiyini vurğulayıb. O, Prezident İlham Əliyevə Azərbaycanın NATO-nun Əfqanıstandakı missiyasına verdiyi töhfəyə, o cümlədən sülhməramlı əməliyyatlarda və terrorizmə qarşı mübarizədə oynadığı rola görə minnətdarlığını bildirib.

Bəyanatda vurğulanır ki, dövlət katibi ABŞ-ın Azərbaycanda demokratiya və insan haqları məsələsində atılan müsbət addımları yüksək qiymətləndirdiyini qeyd edib.

## Ordu və cəmiyyət

# Biz də ön sıralarda olacağıq

***Məlum olduğu kimi, martın 20-də hərbi hissələrimizdə "Açıq qapı" günü tədbiri keçirilib. Keçmiş Qarabağ döyüşçüləri və veteranları da bu tədbirdə iştirak ediblər.***

Vətənimizin keşiyində dayanan əsgərlərimizin görüşünə gəlmişik. Biz veteranlar tez-tez cəbhə bölgələrində yerləşən hərbi hissələrdə şəxsi heyətlə görüşlər təşkil edir, ordumuzun yarandığı ilk vaxtlardakı çətinlikləri yada salır, torpaqlarımız uğrunda gedən ağır döyüşləri xatırlayırıq. 1993-cü ildə ulu öndərimiz tərəfindən təməli qoyulan ordumuz bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində daha da qüvvətlənib və müasir orduya çevrilib. Ordumuzun günü-gündən inkişafı, müasir hərbi şəhərciklərin salınması ürəyimizi fərəh hissi ilə doldurur. Ötən il Silahlı Qüvvələrdə keçirilən təlimlərə ehtiyatda olan yüzlərlə əsgər və zabit qatıldı. Biz də həmin təlimlərdə iştirak etdik. Torpaqlarımızı düşməndən azad etməyə hazır olduğumuzu və ön sıralarda vuruşacağımızı bildirdik.



**Həsən MİLLƏTOĞLU,**
**Çingiz YƏHYAYEV,**
**Ağdaş rayonu**

## Gənc zabitlərimiz

# "Hər bir zabitə liderlik bacarığı vacibdir"

*Yolumuz bu dəfə də ön xəttə, Vətənimizin keşiyində dayanan oğulların yanınadır. Ana torpağa bağlı olan mətin oğullar illərdir Ermənistan hərbi birləşmələrinin hücum cəhdlərinin qarşısını cəsarətlə alır və ordumuzun yüksək döyüş hazırlığını nümayiş etdirirlər. Belə vətənpərvər gənclərimiz xalqımızın qəhrəmanlıq ənənələrinə sadiq qalaraq, hər an qələbə qazanmaq əzmindədirlər. Bu gün onları bir amal birləşdirir: Azərbaycanımızın ərazi bütövlüyü uğrunda müqəddəs müharibəyə hazır olmaq. Vətənə sipər oğulların sırasında dayanan iki gənc zabitimizi qəzetimizin oxucularına daha yaxından tanıtmaq istərdim. Onlar gecə-gündüz başlarında dəbilqə, çiyinlərində silah, qəlblərində isə torpaq sevgisi ilə Vətənin müdafiəsindədirlər. Pərviz Məmmədov və Elvin Əhmədov. Hər ikisi baş leytenantdır. Ön mövqedə xidmət edirlər.*



Bölük komandiri baş leytenant Pərviz Məmmədov ilk baxışdan təvəzökar və səmimi olan gənc zabit görkəmiylə diqqət çəkir. Əslən Tovuz rayonundandır, Bakıda boya-başa çatıb. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində zabit peşəsinin sirlərinə dərindən yiyələnib. Vətəni qorumaq peşəsini öz arzusuyla seçdiyini deyən gənc zabit hələ uşaq çağlarında yay tətillərində ata-baba ocağına gələrkən burada çoxlu sayda hərbi formalı insanlarla qarşılaşdığını xatırlayır. Valideynlərindən formalı adamların kimlər olduğunu soruşduqda isə öyrənib ki, onlar yurdumuza göz dikən erməni işğalçılarına qarşı döyüşən əsgər və zabitlərimizdirlər. Elə həmin vaxtlardan da Pərvizin ürəyində hərbçi olmaq istəyi baş qaldırıb. O da əyninə hərbi forma geyinib nə vaxtsa Vətənimizin keşiyində dayanacağını düşünüb. Bu gün isə arzusuna yetişib - Silahlı Qüvvələrimizin peşəkar zabitlərindəndir. Bəli, artıq Pərviz xidmət etdiyi hərbi hissədə vətənpərvər komandir kimi tanınır. Tabeliyində olan əsgərlərə qayğısını əsirgəməyən gənc komandir həm də olduqca tələbkardır. Əsgərləriylə daim fərdi söhbətlər apardığını bildirən zabitə görə, hər bir əsgərin özünəxas xarakteri olur. "Fərqli xarakterləri öyrənmək üçün gərək onlarla səmimi dialoq qurasan. Bu amillər xidmətin uğurlu aparılmasına təkan verir.

"Zabitdə liderlik bacarığının olması vacib amillərdəndir. Tabeliyimdə olan şəxsi heyətə hərbi vərdişləri həvəslə aşılayaraq onları hər zaman torpaqlarımızın azadlığı naminə döyüşə hazır olmağa ruhlandırıram", - deyir baş leytenant Pərviz Məmmədov.



Motoatıcı taqımın komandiri baş leytenant Elvin Əhmədov isə 5 ildir ki, Vətənin müdafiəsində mərdliklə dayanıb. İmişli rayonunda anadan olub. Hələ orta məktəbdə oxuduğu illərdə "Cəsurlar", "Şahinlər" hərbi idman oyunlarının fəal iştirakçısı olub, kiçik yaşlarından hərbə maraq göstərib. Elə bu arzuyla da sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edir və kursant adını qazanır. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Taqım komandiri kimi xidmətə cəbhə bölgəsində başlayıb. Bu gün də baş leytenant E.Əhmədov düşmənlə təmas xəttində Vətən torpaqlarının müdafiəsindədir.

Vətənpərvər zabitin liderlik bacarığı, qorxmazlığı ona uğurlar qazandırıb və komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb.

O da işğalçı Ermənistan tərəfindən zəbt edilmiş torpaqlarımızın azad edilməsi uğrunda ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözləyən zabitlərimizdən biridir. Bu gün ordu rəhbərliyinin tez-tez döyüşən zabit və əsgərlərlə görüşməsi, xidmətində nümunəvi olanlara mükafatların şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən təqdim edilməsi hər bir zabiti sevindirir və məsuliyyət hissini daha da artırır.

Ordumuzun bu gənc, vətənpərvər zabitlərinə müqəddəs xidmətlərində uğurlar diləyib, tezliklə qələbə müjdəli xəbərlərlə xalqımızı sevindirməyi arzuladıq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**M.MÖHBALIYEVİNDİR**

# Xəbərlər: hadisələr, faktlar

### İranda Ana və Qadınlar Günü qeyd olunub



Martın 30-u İran İslam Respublikasında Ana və Qadınlar Günü kimi qeyd olunub. Dünyada qadınlar bayramının 8 martda, İranda isə 30 martda qeyd olunması təsadüfi deyil.

Bu gün İslam dininin banisi Məhəmməd Peyğəmbərin əziz qızı Fatimə Zəhra dünyaya göz açıb. Peyğəmbərin hicrətindən 8 il əvvəl cəmadüssani ayının 20-də (miladi tarixi ilə martın 30-da) doğulan Fatimə uşaqlıq dövrünü atasının yanında keçirir və yetkinlik yaşlarında islam dinini mükəmməl şəkildə mənimsəyir. Həzrəti Fatimənin həyatı müsəlman qadınları üçün bir nümunədir. İranda bu görkəmli qadının anadan olduğu gün Ana və Qadın Günü kimi qeyd olunur.

### "Boeing" şirkəti 4 min işçini ixtisara salmaq niyyətindədir




ABŞ-ın "Boeing" şirkəti 4 min işçini ixtisara salmaq niyyətindədir.

Şirkət 1.6 min nəfərin könüllü şəkildə işindən ayrılacağını söyləyib.

Şirkətdən bildirilib ki, işçilərin ixtisar edilməsinə səbəb şirkətin xərclərini azaltmaqla təyyarələrin xidmətindən istifadə qiymətində endirim etməkdir. Bu addımlar "Airbus" ilə uğurla rəqabət aparmağa imkan verəcək.

### "Sharp" satıldı




Tayvanın "Foxconn" şirkəti Yaponiyanın qabaqcıl elektronika istehsalçısı olan "Sharp"ın səhmlərinin əksər hissəsini satın alıb.

"Foxconn" "Sharp"ın səhmlərinə sahib olmaq üçün 3.5 milyard dollar ödəyəcək.

Qeyd edək ki, "Foxconn" "Apple" üçün "iPhone", "iPad" və "MacBook"ların, eləcə də digər məşhur texnoloji şirkətlərin məhsullarının istehsalçısıdır.

### Niderlandda orijinal ofis binası tikilib



Niderlandın ehtiyat hissələri istehsalı ilə məşğul olan "ForTop Zwartsluis" şirkəti üçün rahat ofis binası inşa olunub.

Memar Arno Olenin layihəsi əsasında tikilən bina həm ofis, həm də şirkətin anbarı kimi istifadə edilir. Ənənəvi ofislərdən fərqli olaraq, binanın damı "dişvari" üslubdadır. Bu "diş"lərin bir tərəfi şüşə ilə örtülüb ki, onun da hesabına içəri kifayət qədər işıq düşür.

Memarın fikrincə, layihənin həyata keçirilməsi nəticəsində iş yerləri daha rahat olmaqla, şirkət həmçinin enerjiyə də qənaət etmiş olur. Ümumi sahəsi 640 kvadratmetr olan binanın tikintisində davamlı materiallardan istifadə olunub.

### Türkiyədə yeni nəsil təlim təyyarəsinin sınaq uçuşu keçirilib



Türkiyədə istehsal olunan yeni nəsil təlim təyyarəsinin sınaq uçuşu uğurla başa çatıb.

Bu ölkənin Aviasiya və Kosmik Sənaye (TUSAŞ) Şirkəti tərəfindən istehsal olunan təyyarə "HÜRKUŞ-A" adlandırılıb. Avropa Mülki Aviasiya Təşkilatının (EASA) mühəndis və pilot heyəti yeni hava gəmisinin müasir standartlara uyğun olduğunu təsdiqləyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb



***Azərbaycan Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, 2016-cı il aprelin 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.***

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Həmin sənədə uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Qeyd edək ki, Prezident İlham Əliyev 2016-cı il martın 7-də Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.



# Hərbi Liseydə Səttar Bəhlulzadənin yaradıcılığına həsr olunmuş tədbir

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Rəssamlar İttifaqının kollektivi ilə incəsənət həftəsi çərçivəsində Səttar Bəhlulzadənin yaradıcılığına həsr olunmuş tədbir keçirilib.

Rəssamlar İttifaqının üzvləri xalq rəssamı Arif Hüseynov, əməkdar incəsənət xadimi - rəssam Ziyadxan Əliyev və Adil Şıxəliyev xalq rəssamı Səttar Bəhlulzadənin yaradıcılığından və yaratdığı əsərlərdən danışıblar.

Hərbi Liseydə rəsm ilə məşğul olan kursantlara rəsm ləvazimatları və Səttar Bəhlulzadənin yaradıcılığına həsr olunmuş kitablar hədiyyə edilib.

Sonda qonaqlar kursantların çəkdikləri rəsmlərə tamaşa edib və onlarla xatirə fotosu çəkdiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Təşəkkür çiçəkləri

Ezamiyyətlərin birində yaxşı tanıdığım, səsinə, səsinin məlahətinə vurulduğum müğənni Ağabala Abdullayevlə kəlmələşirdik. İncəsənətdən, muğamlarımızdan, bir də onun oxuduğu "Gözlə məni" mahnısından, o mahnının ovqatından, milli-mənəvi dəyərlərimizdən... "Ansamblımızın (Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı R.F) keçmiş solistlərindən biri Tərtərdə xidmət edir", - dedi. Azərbaycan gənclərinin 1-ci forumunun 20 illiyinə və Gənclər Gününə həsr edilmiş "Ordu gəncləri böyük qüvvədir" devizi ilə keçirilən gənclik və vətənpərvərlik bayramında onun da iştirak etməsi könül xoşluğu olardı. Ansamblın üzvləri, ələlxüsus bədii rəhbəri polkovnik-leytenant Zöhrab İmamquliyev üçün də, Firuz üçün də.

Firuz Əlövsətov nümunəvi əsgərmiş; hərbi hissənin komandiri xahişimizi yerinə yetirdi, tədbirdə onun da iştirakını təmin elədi...

Firuz Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin məzunudu. Uşaqlıqdan rəqsə (milli rəqsə!) böyük marağı olub. Həvəsi, ötəri həvəs deyilmiş; Bakı Xereoqrafiya Məktəbində təhsil alıb, rəqsin fəlsəfəsini (sözün, mətləbin hərəkətlərlə ifadəsi) öyrənib. Hər rəqsin aşıladığı fikir, ideya müxtəlif olur. Bu müxtəlifliк əl-ayaq hərəkətləri, bu hərəkətlərin dinamikası və mimikanın vəhdəti kimi təzahür edir. Firuz bunun öhdəsindən məharətlə gəlirdi. 2010-2014-cü illərdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solisti kimi neçə-neçə irimiqyaslı tədbirdə tamaşaçılara könül xoşluğu verənlərdən biri olmuşdu. Ötən il Beyləqanda keçirilən tədbirdə "Çobanlar rəqsi" ürəyimi titrəndirmiş-di, solistlərdən biri Firuz Əlövsətov idi...

Gənclər günündə hərbi mundirdə rəqqasların sırasında gördük onu. Rəqs üçün necə qəribsəyibmiş, ilahi necə?! Elə həvəslə, elə çılğınlıqla rəqs eləyirdi ki!

Bu rəqsə görə "Heydər Əliyev Parkı"nı dalğalandıran alqışları onun ünvanına yazdım. Əsgərin bu biçim rəqsi hamını heyrətləndirmişdi...

Tədbir başa çatanda 10-11 yaşlı bir uşağın ona gül verdiyi diqqətimi çəkdi. Ürəyim dağa döndü. Bu yaşda uşağın rəqsimizin fəlsəfəsini dərk etməsi, hərbi mundiri bu qədər duyğusallıqla dəyərləndirməsi mənə həmişə bir həqiqəti yaşadıb: incəsənət duyumu kövrəkləşdirir, milli ruha ad eləyir... İkisini də bağrına basmaq istədim: Firuzu rəqsə görə, o uşağı duyumuna görə...

2015-ci ilin sonlarından hərbi xidmətdədi. Döyüş bölgəsində xidmət edir. Komandiri ondan razılıqla danışdı: "İntizamlıdı, cəsarətlidi..." - dedi komandir...

Tədbirdə iştirak etməsi Firuza böyük könül xoşluğu vermişdi. Neçə aylardan sonra zamanında eyni səhnəni bölüşdüyü rəqqaslarla eynidən rəqs eləməsi (həm də belə bir möhtəşəm tədbirdə!) onun ürəyini tellәndirmişdi...

...Hərbi xidməti başa çatanda doğma ansambla qayıdacaq. Tədbirlərdə əsgərlərin alqışını mülki həyatının mükafatı biləcək.

Firuz Əlövsətov əsgərdi. Düşmənlə təmas xəttində xidmət edir. Həm də nümunəvi! Bundan valideynləri də, bir vaxtlar üzvü olduğu ansamblın rəhbərləri də, solistləri də qürur duyurlar.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Rusiya yeni texnikalar alacaq



Rusiya Quru Qoşunlarının Komandanı general-polkovnik Oleq Salyukovun məlumatına əsasən, beş il ərzində quru qoşunlarının silahlanmasına 5000 ədəd yeni, 6000-ə qədər isə modernləşdirilmiş hərbi texnika nümunələri əlavə olunacaq. Verilən məlumata görə, sonra onların sırasına 14 minə qədər yeni avtomobil texnikası da əlavə olunacaq.

General-polkovnik Salyukov bu il quru qoşunlarının tərkibinə orta məsafəli "Buk-M3" zenit-raket komplektinin daxil ediləcəyini də qeyd edib.

## Çində təhlükəli sınaqların keçirilməsi üçün yeni aerodrom istifadəyə verilib



Çinin "COMAC" Aviatikinti Korporasiyası təhlükə yaradan aviasiya texnikasının sınağının keçirilməsi üçün xüsusi aerodrom quraşdırıb. Aviation Veekin məlumatına görə, ilk növbədə burada kiçik flyüzelajlı C919 sərnişin təyyarəsinin sınağı keçiriləcək. Aerodrom Şandun əyalətində yerləşir və təqribən "COMAC" istehsal kompleksindən və Pudin beynəlxalq hava limanından 750 kilometr məsafədədir. Sınaq zamanı təyyarənin qəza təhlükəsinin, yanacaq və güc qurğularının vəziyyətinin yoxlanılması həyata keçiriləcək. Burada regional laynerlərin də sınağı nəzərdə tutulub. C919 laynerinin hazırlanmasına 2010-cu ildə başlanılıb. "COMAC"-ın məlumatına görə, yeni təyyarə sərnişin daşınmalarını 2018-ci ildən həyata keçirəcək. Təyyarənin çəkisi 77 tondur, 174 nəfərə qədər sərnişin daşıya bilər. Sürəti saatda 834 kilometr.saat, uçuş uzaqlığı isə 5.5 min kilometrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Xəlilov Bəxtiyar Məmməd oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 151
Nüsxə 4700